1_Layout 1 29.01.2025 14:33 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 2 (690)

31 yanvar 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# MİLLİ MARAQ, BEYNƏLXALQ NÜFUZ, İŞGÜZAR ƏMƏKDAŞLIQ

## Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasətin əsas istiqamətləridir

**"Azərbaycan" qəzetinin müxbiri İradə Əliyevanın müəllifi olduğu "Milli maraq, beynəlxalq nüfuz, işgüzar əməkdaşlıq" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

Yanvarın 14-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışında və Zayed Dayanıqlılıq Mükafatının təqdimatı mərasimində bir çox dövlət və hökumət başçısı ilə bərabər Azərbaycan Prezidenti İlham Əliyev də iştirak etdi.

Qeyd edək ki, Əbu-Dabi Dayanıqlılıq Həftəsi 2008-ci ildə təsis olunub və ötən illər ərzində bu format dayanıqlı qlobal inkişaf baxımından önəmli müzakirələrin aparıldığı beynəlxalq platformaya çevrilib. Qlobal əməkdaşlıq və liderlik, iqtisadi inkişaf və texnologiya, eləcə də innovasiya prinsiplərini əsas istiqamətlər kimi müəyyənləşdirən Dayanıqlılıq Həftəsi dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, iş adamlarını və gəncləri bir araya gətirir. Budəfəki Dayanıqlılıq Həftəsində 13 dövlət və hökumət başçısı, eləcə də 140-dan çox nazir və digər rəsmi şəxslər iştirak etmişlər.



### Qlobal platformalarda iştirakın faydaları

Prezident İlham Əliyevin şəxsində Azərbaycan dövlətinin belə platformalarda ən yüksək səviyyədə təmsil olunmasının əhəmiyyəti bir neçə əsas sahədə özünü göstərir. Bu cür platformalar ilk növbədə diplomatik münasibətlərin gücləndirilməsi baxımından önəmlidir. Ümumiyyətlə, cənab İlham Əliyevin beynəlxalq tədbirlərdə iştirakı həm ölkəmizin dünya arenasında nüfuzuna, daha yaxından tanınmasına, mövqeyinin mötəbərliyinə xidmət edir, həm də Azərbaycanın diplomatik strategiyalarının və münasibətlərinin güclənməsinə kömək göstərir.

Belə platformaların iqtisadi əməkdaşlığın inkişafına da böyük töhfələri var. Bu baxımdan Əbu-Dabi Dayanıqlılıq Həftəsi kimi beynəlxalq tədbirlər ölkələr arasında iqtisadi əməkdaşlığı gücləndirmək, yeni investisiya imkanlarını araşdırmaq və layihələri təqdim etmək üçün əlverişli zəmin yaradır. Azərbaycan Prezidentinin belə tədbirlərdə iştirakı isə bu sahədə potensial tərəfdarları ölkəmizə cəlb edir.

### Mehriban qonşuluq, işgüzar münasibətlər

Bu günlər Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Azərbaycana səfəri rəsmi Tbilisinin Bakı ilə əlaqələrinə verdiyi diqqət və əhəmiyyətin ifadəsidir. Prezident İlham Əliyev bəyanatında dövlətlərimiz arasında olan mehriban qonşuluq və işgüzar münasibətlərdə xalqlarımızın rolunu belə qeyd edib: "Bizim xalqlarımız əsrlər boyu dostluq, mehriban qonşuluq, qardaşlıq şəraitində yaşamışlar. Bu ənənələr bu gün də yaşayır. Bu gün Gürcüstan-Azərbaycan əlaqələri bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Hesab edirəm ki, bizim siyasi əlaqələrimiz bütün qonşular üçün nümunə ola bilər".

Modern Azərbaycan və Gürcüstanı bir-birinə sıx bağlayan hərtərəfli əməkdaşlığın əsası Ulu Öndər Heydər Əliyevlə sabiq Prezident Eduard Şevardnadze tərəfindən qoyulub. Hazırda həm ölkələrimizin, həm də regionumuzun dayanıqlı inkişafı və çiçəklənməsi perspektivləri bu bünövrə üzərində bərqərar olub. Təqdirəlayiq haldır ki, sonrakı illərdə dövlətlərimiz bu strateji kursa sadiqliklərini nümayiş etdirərək bölgənin firavan gələcəyinə dair birgə səylərin sabitliyini təmin etməyə nail olublar.

### Davosda Azərbaycana maraq yenə böyük oldu

Yanvarın 20-24-də İsveçrə Konfederasiyasının Davos şəhərində Dünya İqtisadi Forumunun növbəti toplantısında Azərbaycan Prezidenti İlham Əliyev də iştirak etmişdir. Builki toplantı sayca 55-ci idi. Ölkəmizin bu forumda iştirakını və fəallığını ilbəil artırması Prezident İlham Əliyevin rəhbərliyi sayəsində qazandığımız davamlı uğurlarla bağlıdır. Dövlətimizin başçısı forum çərçivəsində çıxışlar etmiş, panellərə qatılmış, çoxsaylı sualı cavablandırmışdır.

Prezident İlham Əliyev Davosda bir sıra ölkələrin dövlət və hökumət başçıları, eləcə də tanınmış şirkətlərin rəhbərləri ilə görüşüb. Onu da bildirək ki, bu görüşlər qarşı tərəflərin təşəbbüsləri ilə baş tutub. Bu da Azərbaycana olan hörmətdən, ölkəmizin qazandığı etibarlı tərəfdaş imicindən, dövlətimizin başçısının yüksək nüfuzundan qaynaqlanır.

Prezident İlham Əliyevin görüşdüyü şirkət rəhbərləri birmənalı olaraq Azərbaycanda fəaliyyətlərini genişləndirmək, yaxud işbirliyi qurmaq, əməkdaşlıq və tərəfdaşlıq etmək istədiklərini bildiriblər.

### Çoxvektorlu yanaşma

Bu aparıcı niyyəti Azərbaycanın 2024-cü il ərzində həyata keçirdiyi müstəqil siyasət kursunda, ölkə rəhbərinin xarici səfərlərində hər birimiz görə bilərik. 2024-cü il bu baxımdan ölkəmizin çoxvektorlu xarici siyasətində mühüm nəticələr, böyük nailiyyətlərlə müşayiət olundu. Dövlətimizin başçısının məqsədyönlü siyasəti, irəli sürdüyü təşəbbüslər, atdığı davamlı strateji addımlar sayəsində respublikamızın beynəlxalq arenada mövqeyi daha da gücləndi, regionun lider dövləti mövqeyi möhkəmləndi.

Bu uğurların əldə olunmasında Prezident İlham Əliyevin xarici ölkələrə səfərləri, həmin səfərlər çərçivəsində keçirdiyi görüşlər, bu çərçivədə dövlətlər və hökumətlər arasında imzalanan sənədlər mühüm rol oynadı. Xüsusilə enerji, nəqliyyat və investisiya sahələrindəki razılaşmalar Azərbaycanın qlobal tərəfdaşlıq potensialını daha da artıraraq gücləndirdi.

Təkcə 2024-cü il ərzində Azərbaycan Prezidenti İlham Əliyev iki dəfə Almaniyada, iki dəfə Türkiyədə, iki dəfə Qazaxıstanda, üç dəfə Rusiyada, Misirdə, Pakistanda, Böyük Britaniyada, Özbəkistanda, İtaliyada və Qırğızıstanda səfərlərdə olmuşdur.

Səfərlər Azərbaycan Prezidentinə sülhə, əməkdaşlığa, ölkələr arasında qarşılıqlı münasibətlərə tarixi xidmətlərinə görə ali dövlət mükafatlarının təqdim edilməsi baxımından da əlamətdar oldu. Prezident İlham Əliyevə Kazan şəhərində Tatarıstanın ali dövlət mükafatı olan "Dostluq" ordeni, Bişkekdə isə "Çingiz Aytmatov" ordeni təqdim edildi. Bu mükafatlar Azərbaycanın beynəlxalq əlaqələrdəki uğurlarının, regionlararası əməkdaşlığın inkişafına və mədəniyyətlərarası dialoqun təşviqinə verdiyi töhfələrin təqdir edildiyinin, eləcə də beynəlxalq səviyyədə Azərbaycan Prezidentinin şəxsiyyətinə böyük hörmət və ehtiramın daha bir təsdiqidir.

### Qlobal sülh təşəbbüslərinin mərkəzində

Ümumilikdə Azərbaycanın 2024-cü ildə xarici siyasət sahəsində əldə etdiyi uğurlar bir sıra mühüm sahələrdə öz əksini tapdı. Bu uğurlar ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsinə, regional sabitliyin təmin olunmasına böyük təkan verdi. Azərbaycan il boyu qlobal sülh təşəbbüslərinin mərkəzində olaraq Cənubi Qafqazda bu prosesin irəliləməsi üçün konkret addımlar atdı. Ermənistanla münasibətlərin normallaşdırılması və sərhədlərin delimitasiyası üzrə danışıqlar davam etdirildi. Azərbaycanın sülh təşəbbüsləri beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirildi və bir çox ölkə bu prosesə dəstək verməyə çalışdı.

Enerji təhlükəsizliyi sahəsində də Azərbaycan liderliyini davam etdirdi. Xüsusilə "Cənub qaz dəhlizi" və "yaşıl enerji" layihələri ilə bağlı əməkdaşlıq genişləndi.

Azərbaycan beynəlxalq humanitar təşəbbüslərdə yenə də yüksək fəallıq göstərdi. Ölkəmizin evsahibliyi etdiyi qlobal forumlar və digər tədbirlər vasitəsilə mədəniyyətlərarası dialoq, tolerantlıq və humanist dəyərlər təşviq olundu.

Azərbaycanın 2024-cü ildə xarici siyasət uğurları ölkənin strateji hədəflərinə çatmaqda irəliləyiş olduğunu göstərir. Bu uğurlar həm regional sabitliyə, həm də Azərbaycanın beynəlxalq səviyyədə mövqeyinin möhkəmlənməsinə xidmət edir.

# DAXİLİ İŞLƏR NAZİRİ ƏMƏLİYYAT MÜŞAVİRƏSİ KEÇİRİB

## Hərbi qulluqçuların ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdikləri xidmətlər yüksək qiymətləndirilib





**Yanvarın 14-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə DİN-in Daxili Qoşunlarının 2024-cü ildəki xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**

Müşavirəni giriş sözü ilə açan general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatının, hərbi qulluqçuların iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

DİN-in Daxili Qoşunlarının ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində göstərdiyi şücaəti, işğaldan azad edilmiş şəhər və rayonlarda, o cümlədən COP29 zamanı hərbi qulluqçuların polis əməkdaşları ilə birlikdə ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdikləri xidmətlərini cənab Prezidentin yüksək qiymətləndirdiyini məmnunluqla qeyd edən nazir onu da vurğulayıb ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan və polis əməkdaşlarından xidməti vəzifələrini daha böyük məsuliyyətlə yerinə yetirməyi tələb edir.

Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Müşavirəyə yekun vuran nazir V.Eyvazov ötən hesabat ilində qoşunların fəaliyyətini yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışıb, onların həlli yollarını göstərib, konkret tapşırıq və tövsiyələrini verib.

**DİN-in Mətbuat xidməti**

2 - 1_Layout 1 29.01.2025 14:29 Page 1



# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB

**Yanvarın 24-də Daxili İşlər Nazirliyində 2024-cü ildə cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və cari ildə qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**



İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən hüquq-mühafizə siyasətinin sayəsində ölkəmizdə möhkəm təməllərə söykənən sabitlik hesabat ilində də etibarlı qorunub.

Qeyd olunub ki, cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xidməti vəzifələr layiqincə yerinə yetirilib, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə, habelə işğaldan azad olunmuş ərazilərdə təhlükəsizlik etibarlı təmin edilib, qanunla müəyyən edilmiş funksiyalar digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə davam etdirilib. Daxili işlər orqanlarının əməkdaşları miqyasına görə indiyədək ölkəmizdə keçirilən konfrans, yarış və mərasimlərlə müqayisəyə gəlməyən COP29-un yüksək təhlükəsizlik şəraitində keçməsi üçün üzərinə düşən vəzifələri və qarşıya qoyulmuş tapşırıqları aidiyyəti dövlət qurumları ilə sıx əməkdaşlıq şəraitində əzmlə yerinə yetirib.



Hesabat məruzəsi ilə çıxış edən nazir V.Eyvazov vurğulayıb ki, 2024-cü ildə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 33.379 cinayət qeydə alınıb, onlardan 87,6 faizi açılıb, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 327 fakt təşkil edib. Cinayətlərin 94,4 faizi və ya 31.526-sı daxili işlər və prokurorluq orqanlarının prosessual qaydada araşdırdığı hüquqazidd əməllər olmaqla 90,3 faizinin açılması təmin edilib.

Cinayətlərin ağır və xüsusilə ağır növlərinin 87,3, qeyri-aşkar şəraitdə baş verənlərin 86, şəxsiyyət əleyhinə olanların 98,9, onlardan qəsdən adam öldürmələrin 96,6, adam öldürməyə cəhdlərin 95,2, qəsdən sağlamlığa ağır zərər vurmaların 98,9, mülkiyyət əleyhinə olanların 83,3 faizi açılıb. Xırda talamaların açılmasının nəticələri 3 faiz yaxşılaşaraq 87,5 faizə yüksəlib. Ağır və xüsusilə ağır cinayətlər törətmiş 3271 nəfər tutulub, 216 kriminal qrup zərərsizləşdirilib.

Davam etdirilən profilaktik tədbirlərin nəticəsi olaraq müqayisə edilən dövrə nisbətən 2024-cü ildə qrup halında baş verən cinayətlərin sayında 23,2, ictimai yerlərdə baş verənlərin sayında 9, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilənlərin sayında 8 faiz azalma qeydə alınıb. Ümumi cinayətlər 9,4, ağır və xüsusilə ağır cinayətlər 18,9, qeyri-aşkar şəraitdə baş verənlər 18,1, qəsdən adam öldürmələr 9,6, adam öldürməyə cəhdlər 16,9, qəsdən sağlamlığa ağır zərər vurmalar 13,5, xuliqanlıqlar 5, odlu silahın tətbiqi ilə törədilənlər 21, mülkiyyət əleyhinə olanlar 10,4, onlardan avtonəqliyyat vasitələrini qaçırmalar 9,5, habelə yol-nəqliyyat hadisələri 12,8, qəzalarda xəsarət alanların sayı 13,1, ölənlərin sayı 11,4 faiz azalıb.

Prokurorluq orqanlarının əməkdaşları ilə birgə keçmiş illərdən bağlı qalmış cinayətlərin açılmasında nəzərəçarpan irəliləyiş əldə edildiyini, 630 fakt üzrə təqsirli şəxslərin məsuliyyətə cəlb olunduğunu, o cümlədən cinayətlərin ağır, xüsusilə ağır və transmilli mütəşəkkil növlərinin qarşısının alınması və istintaqı kimi mühüm vəzifələrin icrasında böyük bir iş həcminin yerinə yetirildiyini qeyd edib.

Təqsirləndirilən şəxslərin axtarışının nəticələri yaxşılaşaraq 87,9 faiz təşkil edib, İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 118 şəxsin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 65 nəfərin yeri müəyyən olunub.

Qanunsuz odlu silah saxlama və daşıma ilə bağlı 527 fakt müəyyən edilib, həmin cinayətlərə görə 247 nəfər tutulub. Ümumilikdə 7.227 odlu silah və 1 milyona yaxın sursat aşkarlanıb.

Narkotiklərlə mübarizənin də vəziyyətinə toxunan nazir V.Eyvazov bildirib ki, qanunsuz dövriyyədən 2023-cü il ilə müqayisədə 250 kiloqram çox - 4 ton 714 kiloqram narkotik vasitə götürülüb, 283 kiloqram narkotikin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb, onlayn satışla bağlı 466 fakt üzrə 2 ton 51 kiloqram müvafiq vasitə aşkarlanıb və narkotiklərlə əlaqəli cinayətlərə görə 108 cinayətkar qrup zərərsizləşdirilib. Bu istiqamətdə əldə olunmuş müsbət nəticələri yüksək qiymətləndirən nazir müvafiq fəaliyyətin qətiyyətlə davam etdirilməsini tapşıraraq diqqəti qarşıda duran vəzifələrə çəkib, həmin cinayətlərlə mübarizədə vətəndaşların iştirakı, məlumatları əsasında uğurlu nəticələri olan bir çox əməliyyatların keçirildiyini, müşahidə olunan müsbət təmayüllərin məhz günbəgün möhkəmlənən polis-vətəndaş münasibətlərinin təzahürü olduğunu, Daxili İşlər Nazirliyinin bu məsələdə cəmiyyətin yetkin təbəqəsinə, sağlam düşüncəli hər bir vətəndaşa güvəndiyini, mediadan, sosial şəbəkələrin aktiv istifadəçilərindən, o cümlədən bloqerlərdən daha böyük gözləntilərinin olduğunu qeyd edib.

Nazir onların, eləcə də yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirən hər bir şəxsin, o cümlədən ictimai fəalların, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin və media mənsublarının fəaliyyətini təqdir edərək hər birinə təşəkkürünü bildirib.

Həmçinin ölkədə aparılan antinarkotik təbliğatın əhəmiyyətini qeyd edərək ötən il bu sahədə ərazi polis orqanlarının rəhbərlərinin iştirakı ilə 1200-ə yaxın maarifləndirmə tədbirinin keçirildiyini nəzərə çatdırıb, bu qəbildən tədbirlərin davamlı və məqsədyönlü olması, cari ildə də fəaliyyətin ölkədə narkotiklərə olan tələbatın azaldılması məqsədi üzərində qurulması ilə bağlı göstərişlər verib, respublikanın təhsil müəssisələrində həyata keçirilən maarifləndirmə və təbliğat tədbirlərində iştirak edən dövlət qurumlarının mütəxəssislərinin, yüksək ixtisaslı pedaqoqların, ictimaiyyətin tanınmış nümayəndələrinin tərkibinin genişləndirilməsini, məktəblərdən, valideynlərdən gələn hər bir aidiyyəti siqnala çevik reaksiya verilməsini tapşırıb.

Qadınlara qarşı zorakılıqla müşayiət olunan cinayətlərin qarşısının alınması, açılması, zorakılıq etmiş şəxslərin cəzasızlığına yol verilməməsi üçün qabaqlayıcı tədbirlərin davam etdirildiyini bildirən nazir qadınların təqsirləndirilən və ya zərərçəkmiş şəxs qismində keçdikləri bütün cinayət işləri, o cümlədən materialların mütəmadi təhlil olunduğunu, onları cinayətə təhrik edən amillərin öyrənilib aradan qaldırılması üçün tədbirlərin görüldüyünü, o cümlədən aidiyyəti orqan və təşkilatlara vəsatətlər verildiyini qeyd edib. Zorakı əməllərdən və məişət zəminində baş vermiş cinayətlərdən zərər çəkən qadınların prosessual hüquqlarının müdafiəsi istiqamətində görülmüş işlərin nəticəsi olaraq 2024-cü ildə qadınlarla bağlı törədilmiş cinayətlərin ümumi sayında 47 fakt, o cümlədən ailə münaqişəsi zəminli cinayətlərin sayında 1,8 faiz azalma müşahidə olunduğunu vurğulayıb.

Nazir yeniyetmə və gənclərin hüquqazidd hərəkətlərinin qarşısının alınması üzrə qabaqlayıcı tədbirlərin müsbət nəticələr verdiyini və onların hüquqazidd əməllərinin dinamikasında 18,5 faiz azalmanın qeydə alındığını da bildirərək gənclərin bəzi sosial şəbəkə seqmentlərində yayımlanan zərərli informasiyaların təsiri altına düşməməsi, sağlamlığa ziyanlı vərdişlərdən çəkindirilməsi istiqamətində aparılan işlərin səmərəsinin artırılmasını tələb edib.

Diqqətə çatdırılıb ki, hesabat ilində 6.055, o cümlədən mediada qabaqcadan məlumat verilməklə respublikanın 60 şəhər və rayonundan olan 4.468 vətəndaş qəbul edilib, qaldırılan məsələlərin əksəriyyəti yerində və müsbət həll edilib. Eyni zamanda nazirliyə daxil olan müraciətlər araşdırılaraq müvafiq tədbirlərin görülməsi təmin edilib.

Vətəndaş məmnunluğunun təmin olunması, ərizə və şikayətlərin obyektiv, həssaslıqla araşdırılması, qanunçuluğun qorunması kimi mühüm vəzifələrin icrasına da toxunan general-polkovnik Vilayət Eyvazov bu istiqamətlərdə böyük bir fəaliyyət ortaya qoyulduğunu, nəticələrin müsbət olduğunu bildirib. “102” Xidmətinə, “qaynar xətlər”ə daxil olmuş, sosial şəbəkələrdə yayımlanmış müraciətlərə də çevik reaksiya verildiyini, cinayətlər nəticəsində vurulmuş maddi ziyanın təxminən 80,3 faizinin ödənildiyini, əhaliyə göstərilən elektron xidmətlərin müasir tələblərə uyğun təkmilləşdirildiyini, dövlət-vətəndaş münasibətlərində şəffaflığın, operativliyin artırılmasına xidmət edən və fərdi məlumat mübadiləsini təmin edən “E-Polis” mobil tətbiqinin yaradıldığını, “Elektron Xidmətlər Portalı” üzərindən göstərilən 31 adda dövlət xidmətinin mobil tətbiqlərinin hazırlandığını nəzərə çatdırıb.

İclasın gündəliyinə uyğun olaraq hesabat məruzəsi və məruzəətrafı çıxışlar dinlənilib. Məruzə ətrafında çıxış edənlər görülən işlərdən, əldə olunan nəticələrdən, mövcud olan nöqsanlardan, onların aradan qaldırılması üçün həyata keçirilən tədbirlərdən danışıblar.

Kollegiya iclasına yekun vuran nazir bəzi ərazi orqanlarının fəaliyyətində olan çatışmazlıqlara da diqqət çəkərək onların aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsini, bundan sonra da hər bir şəxsin qanuni mənafeyinin, hüquq və azadlığının etibarlı qorunmasını, əməkdaşların vətəndaşlarla ünsiyyətdə etik davranış qaydalarına daim riayət etməsini, eyni zamanda qətiyyətli olmasını, qanunçuluğun möhkəmləndirilməsini, peşəkarlıq səviyyəsinin artırılmasını tələb edib, xidməti fəaliyyətin səmərəliliyinin davamlı olaraq artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Həmçinin bildirib ki, ölkədə cinayətkarlıqla mübarizədə, asayişin və təhlükəsizliyin təmini işində əldə edilmiş müsbət nəticələr Daxili İşlər Nazirliyinin əməkdaşlarını arxayınlaşdırmır, şəxsi heyət suverenliyini tam təmin etmiş Azərbaycanın bütün ərazilərində qanunla müəyyən edilmiş vəzifələrin icrasını davam etdirərək xalqa xidmət funksiyalarını layiqincə və əzmlə həyata keçirməyə çalışır.

Nazir Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqət və qayğıya, şəxsi heyətin fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib və əmin edib ki, ölkədə qanunçuluğun, hüquq qaydasının qorunması, vətəndaşların təhlükəsizliyinin və məmnunluğunun təmin olunması sahəsində vəzifələr böyük əzm və qətiyyətlə davam etdiriləcəkdir.

**DİN-in Mətbuat xidməti**

# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ŞƏXSİ HEYƏTİ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT EDİB





**Yanvarın 20-də Daxili İşlər Nazirliyinin şəxsi heyəti 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olmuş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət ediblər.**

**DİN-in Mətbuat xidməti**

3-1_Layout 1 29.01.2025 14:27 Page 1



## HƏRBİ İNSTİTUTDA SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLİB





Yanvarın 23-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunda Səudiyyə Ərəbistanı Krallığının Təhlükəsizlik Elmləri üzrə Naif Ərəb Universitetinin nümayəndələri ilə görüş keçirilib. Ümumilikdə 4 nəfər xarici qonağın qatıldığı görüşün keçirilməsində məqsəd Daxili Qoşunların Hərbi İnstitutu ilə yaxından tanışlıq olub. İlk olaraq nümayəndə heyəti tərəfindən Hərbi İnstitutda "Şəhidlər abidəsi"nin önünə gül dəstələri qoyulub.

Hərbi İnstitutun rektoru general-mayor Elçin Məmmədov qonaqları institutda görməkdən məmnunluğunu bildirərək, dost və qardaş ölkələr olan Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasındakı münasibətlərin dərin tarixi köklərə malik olduğunu, əməkdaşlığın bütün sahələrdə uğurla inkişaf etdiyini, ölkələrimizin rəhbərlərinin dostluq münasibətlərinin qarşılıqlı əlaqələrin möhkəmlənməsinə böyük töhfələr verdiyini, eləcə də xalqlarımızın mədəni və dini əlaqələrinin hər iki ölkə arasındakı qarşılıqlı fəaliyyətin əsasını təşkil etdiyini diqqətə çatdırıb.

Görüşdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Daxili Qoşunların Hərbi İnstitutu barədə brifinq verilib.

Səudiyyə Ərəbistanı Krallığının Təhlükəsizlik Elmləri üzrə Naif Ərəb Universitetinin prorektoru, heyətin rəhbəri cənab Əbdül Rəzzaq əl-Mərcan səmimi və qonaqpərvər qəbula görə təşəkkürünü bildirib. O, təmsil etdiyi universitet barədə geniş məlumat verib, qarşılıqlı əməkdaşlığın qurulması üçün böyük imkanların olduğunu vurğulayıb.

Heyət rəhbəri cənab Əbdül Rəzzaq əl-Mərcan "Şərəf kitabı"nı imzaladıqdan sonra xatirə şəkli çəkdirilib və Hərbi İnstitutun rektoru tərəfindən qonağa hədiyyə təqdim olunub.

Son olaraq nümayəndə heyəti Hərbi İnstitutun tədris korpusu və kursant yataqxanasına baş çəkib. Kursantların keyfiyyətli hərbi təhsil almaları üçün Hərbi İnstitutda mövcud olan şərait qonaqlarda xoş təəssürat yaradıb.

**Beynəlxalq hərbi əməkdaşlıq şöbəsi**

## SUMQAYIT ŞƏHƏRİNDƏ YAŞAYAN ŞƏHİD AİLƏSİNƏ BAŞ ÇƏKİLİB





Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçuların xatirələri ehtiramla anılır, onların ailə üzvlərinə dərin rəğbət və hörmət nümayiş etdirilir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin şəhid ailələrinə daim göstərdiyi diqqət və qayğı göz önündədir. Şəhid ailələrinin sosial-məişət problemlərinin aradan qaldırılması, ehtiyaclarının qarşılanması istiqamətində respublikamızda həyata keçirilən tədbirlər təqdirəlayiqdir.

Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılır.

16075 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Aftandil Budaqovun rəhbərliyi ilə xüsusi təyinatlı dəstənin bir qrup hərbi qulluqçusunun Daxili Qoşunların şəhidi gizir İsgəndərov Emil Vaqif oğlunun Sumqayıt şəhərində yaşayan ailəsinə baş çəkməsi də göstərilən qayğının təzahürüdür. İlk olaraq, hərbi qulluqçularımız tərəfindən şəhidin Sumqayıt şəhərinin Şəhidlər xiyabanındakı məzarı ziyarət olunub. Şəhadətə ucalmış xüsusi təyinatlının xatirəsi anılaraq məzarına gül dəstələri qoyulub.

Qeyd edək ki, gizir E.İsgəndərov 1990-cı il avqustun 5-də Sumqayıt şəhərində anadan olub. 2008-2010-cu illərdə o, müddətli həqiqi hərbi xidmətdə olub. Müdafiə Nazirliyinin Bakıda və Gəncədə yerləşən "N" saylı hərbi hissələrində hərbi xidmət borcunu vicdanla yerinə yetirib. Atası kimi artilleriya bölməsində xidmət keçib, "kiçik çavuş" hərbi rütbəsində ehtiyata buraxılıb. 2012-ci ilin avqust ayında DİN-in Daxili Qoşunlarının 16073 saylı hərbi hissəsinə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 2020-ci ilin mart ayında isə 12318 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində texnik vəzifəsinə təyin edilib.

O, 44 günlük Vətən müharibəsində şərəfli döyüş yolu keçib. Şuşa-Laçın yolunda yüksəklikdə mövqelənən hərbi qulluqçularımızı düşmən üç tərəfdən müxtəlif növ artilleriyadan şiddətli atəşə tutub. Gizir E.İsgəndərov yanında minaatan mərmisinin partlayışı nəticəsində bir neçə nahiyədən ağır yaralanaraq şəhadətə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin 15 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə gizir Emil İsgəndərov ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Görüş zamanı hərbi qulluqçularımız Birinci Qarabağ müharibəsinin ağrı-acılarını yaşayan, kontuziya alıb "kapitan" hərbi rütbəsində ordudan ehtiyata buraxılan şəhidimizin atası Vaqif İsgəndərov və anası Tənzilə İsgəndərova ilə söhbət ediblər.

Şəhidin atası qeyd edib ki, Emil çox mehriban və məsuliyyətli bir övlad idi. O, daim ailəsinə qayğı göstərib.

Şəhidin anası T.İsgəndərova oğlu barədə fəxarətlə və qürurla danışıb. O, diqqətə çatdırıb ki, övlad itirmək, özü də belə bir qeyrətli oğulun ölümü sözlə ifadə olunmayan ağrı-acıdır. Ailəsi üçün yeganə təskinlik Emilin torpaqlarımızın azad edilməsi naminə şəhidlik məqamına ucalmasıdır. Emilin İbrahim və Nicat adlı iki azyaşlı oğlu yadigar qalıb.

Polkovnik-leytenant A.Budaqov E.İsgəndərovun və digər şəhidlərimizin fədakarlığını, ölkəmizin Vətən müharibəsində qazandığı hərbi zəfərin əhəmiyyətini qeyd edərək, ordumuzun son antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində respublikamızın suverenliyini tam bərpa etməsi barədə danışıb.

Ümumiyyətlə, müharibədən ötən müddət ərzində istər Daxili İşlər Nazirliyinin rəhbərliyi, istərsə də Daxili Qoşunların komandanlığı tərəfindən onlara göstərilən diqqət və qayğıdan razı qaldığını söyləyən İsgəndərovlar ailəsi buna görə dərin minnətdarlığını ifadə edib.

**kapitan Şahin Cəfərzadə**

*Qazilərimiz*

## VƏTƏN TORPAĞINA QANI TÖKÜLƏN, DÜŞMƏNDƏN QİSAS ALAN MƏRD OĞUL

Azərbaycan xalqı 30 ilə yaxın müddətdə yağı tapdağında olmuş Qarabağa və Şərqi Zəngəzura qayıtmaq, doğma yurdlarımıza qovuşmaq arzusu ilə yaşayıb. Bu müqəddəs məqsədə çatmaq üçün heç vaxt ümidini itirməyib və fədakarcasına mübarizə aparıb. Aprel döyüşləri, 44 günlük Vətən müharibəsi, antiterror tədbirləri dövlətimizin şanlı tarixinə qəhrəmanlıq və zəfər salnaməsi kimi yazılıb. "Dəmir yumruq" zərbəsi ilə döyüş meydanında erməni işğalçılarını darmadağın edən mərd oğullarımızın canları və qanları bahasına qalib ölkə adını qazanmışıq.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti Qarabağda keçirilmiş lokal xarakterli antiterror tədbirləri zamanı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan döyüş tapşırığını şərəflə yerinə yetirib. Antiterror əməliyyatında ləyaqətlə iştirak etmiş hərbi qulluqçularımızdan biri də ehtiyatda olan kiçik çavuş Paşayev Bakir Vüqar oğludur.

O, 1989-cu il yanvarın 2-də Laçın rayonunun Qorçu kəndində doğulub. Vüqar Paşayev və Nazilə Paşayevanın yeganə oğul və yaşca ikinci övladıdır, Şəfaqət, Mətanət, Arzu adlı bacıları var. 1992-ci il mayın 18-də Laçın rayonu erməni ordusu tərəfindən işğal olunduqda Paşayevlər ailəsi doğma torpağından didərgin düşüb. Həmin anlarda onlar Laçından göz yaşları ilə ayrılıblar. V.Paşayev ailəsinin rayondan sağ-salamat çıxarılması üçün hər bir təhlükəyə sinə gərib. Əziyyətlərlə dolu yol qət edərkən avtobusdan dərədən axan çayın qırağına enən Bakirin atası vedrə ilə su götürüb, ancaq köç karvanını ləngitməmək üçün oradan tez uzaqlaşıblar. Kiçik stəkanla vedrədən avtobusdakılara su paylanarkən Bakirin bacısı Mətanətə su çatmayıb. Onun susuz qalması məqamını qardaşı o gündən heç vaxt unutmayıb. Ailə Bərdə rayonundakı Xamtorpaq adlanan qəsəbədə məskunlaşıb. Beləliklə, Bakir məcburi köçkünlük həyatının çətinliklərinə dözərək, qəlbində yurd həsrəti ilə boya-başa çatıb.



Bərdə rayonunda fəaliyyətini davam etdirən Laçın rayon Vüqar Abdullayev adına Hacıxanlı kənd tam orta məktəbində təhsil alıb. Yeniyetmə vaxtından hərbçi peşəsinə rəğbət bəsləyib. Məzunu olduğu orta məktəbdə fiziki tərbiyə fənni üzrə müəllim işləyən atasının öyüd-nəsihətləri onun dünyagörüşündə, həyata baxışlarında dərin iz qoyub. Qeyrətli və zəhmətkeş övlad kimi yetişdirilib.

2007-2009-cu illərdə Dövlət Sərhəd Xidmətinin Ağstafa rayonu ərazisində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Dövlət sərhədinin keşiyində ayıq-sayıq dayanıb. Kiçik komandir heyətinin tərkibində öz vəzifələrinə vicdanla yanaşıb. Nümunəvi xidmətini "kiçik çavuş" hərbi rütbəsində başa vurub.

Hərbi xidmətdən tərxis edilərək ailəsinə qayıtdıqda zəhmətə qatlanaraq işləyib, evin ruzi-bərəkətində alın təri ilə Bakirin də payı olub. Bir neçə il sonra o, həyatını dəyişən qərar qəbul edib və çoxdankı arzusunu reallaşdırmaq üçün vacib addım atıb. Belə ki, DİN-in Daxili Qoşunlarının komandanlığına müraciəti müsbət cavablandırılan Bakir 2014-cü ilin fevral ayında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı vəzifəsinə təyin edilərək xidmət müddətində komandanlığın etimadını doğruldub. Silahdaşlarının hörmətini qazanıb. Müxtəlif mükafatlara layiq görülüb. Dəstənin təyinatından irəli gələn tapşırıqların yerinə yetirilməsində, döyüş və mənəvi-psixoloji hazırlığında, funksional vəzifələrinin icrasında əzmkarlığı ilə fərqlənib.

Koronavirus pandemiyası dövründə Bakir Gəncə şəhərində, Şəmkir və Göygöl rayonlarında karantin rejiminin təmin edilməsi üzrə xidmətə çıxıb. Belə bir mühüm xidmətdə müəyyən olunan vəzifələrin öhdəsindən bacarıqla gəlib.

44 günlük Vətən müharibəsi zamanı Bakir Gəncə şəhərində, Gədəbəy və Göygöl rayonlarında qurulan komendant postlarında xidmət aparıb. Vətəndaşlarımızın təhlükəsizliyi keşiyində qətiyyət nümayiş etdirib. Gəncə şəhəri erməni ordusunun atdığı raketlərlə şiddətli atəşə məruz qaldıqda çoxlu sayda dinc sakin həlak olub və xəsarət alıb. Həmin vaxt hərbi qulluqçularımız və ailə üzvləri də təhlükəli vəziyyətlə üzləşiblər. Şahidi olduğu düşmən vəhşiliyi Bakirə uzun illər rahatlıq verməyən qisas hissini daha da gücləndirib. Vətən müharibəsi günlərində şiddətli atəşə tutulan şəhərlərimizdən biri də Bərdə olub. Şəhər sakinlərindən birinə kömək edərkən mərmi partlayışı nəticəsində Bakirin əmisi Niftalı Paşayev şəhidlik zirvəsinə ucalıb. Mərhumun məzarı başında o, əmisinin qanını yerdə qoymayacağına and içib.

İşğaldan azad edilən rayonlarda təhlükəsizliyin qorunması üzrə tapşırıqları peşəkarcasına yerinə yetirib, Şuşa şəhərinin müdafiə və mühafizəsində dayanıb, Laçın şəhərinin ermənilərdən təhvil alınması tədbirində iştirak edib. Uzun ayrılıqdan sonra Laçın rayonunun ərazisinə hərbçi kimi qədəm basdığı gün qəlbində iftixar və qeyri-adi fərəh hissləri yaşayıb.

17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin post-patrul xidməti bölməsinin komandirinin müavini kapitan Eltun Orucov, xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrup komandiri gizir Ceyhun Həsənov, qazilər, ehtiyatda olan gizir Səxavət Zeynalov, istefada olan çavuş Babahəsən Kərimov və əsgər Elgün Musayev, xüsusi vasitələrin tətbiqi dəstəsinin götürmə qrupunun atıcısı əsgər Emin Quliyev Bakir barədə suallarımı cavablandırdılar. Onların bildirdiklərinə görə, Bakir nizam-intizama ciddi riayət edən, vətənpərvərlik əqidəsinə, hərbi anda sadiq qalan, hərbçi peşəsinin şərəfini uca tutan, yoldaşlıqda etibarlı, xidmətdə məsuliyyəti və təlimdə çalışqanlığı ilə seçilən, hərtərəfli hazırlığa malik hərbi qulluqçu olub.

Silahdaşları məlumat verdilər ki, 2023-cü il sentyabrın 19-dan 20-dək Qarabağ bölgəsində erməni işğalçılarına qarşı keçirilmiş antiterror əməliyyatına Bakir ruh yüksəkliyi ilə gedib. Dəstə komandiri polkovnik-leytenant Rəşad Hüseynovun rəhbərliyi altında şəxsi heyət sentyabrın 20-nə keçən gecə döyüş tapşırığını yerinə yetirmək üçün Laçın rayonunun Nağdalı kəndindən Kəlbəcər rayonunun Vəngli kəndinə (hazırda bu kənd Ağdərə rayonuna daxildir) göndərilib. Bu istiqamətdə həm avtomobillər, həm də piyada şəklində yol ilə hərəkət zamanı hərbi qulluqçularımız iki dəfə düşmən pusqusuna düşüblər. Bakir hər iki döyüşdə mərdliklə vuruşub, öz silahından çevik və sərrast atəş açaraq işğalçıları susdurub. Düşmənin hücumları dəf edilib. Birinci pusquda bir neçə nəfər döyüşçü yaralanıb. İkinci pusquda 11 nəfər hərbi qulluqçumuz ərazidəcə şəhadətə yüksəlib, ağır yaralanan dəstə komandiri polkovnik-leytenant R.Hüseynov növbəti gün hərbi qospitalda şəhid olub, döyüşçülərdən Babahəsən, Bakir və Elgün isə sağ qalıblar. Bakir partlayış travması alıb, komandirin ona hədəf göstərdiyi erməni hərbçisini atəş açmaqla zərərsizləşdirib, ancaq üzərinə atılan qumbaranın qəlpələri sağ bud, sol bazu və çiyin, hər iki diz nahiyələrini ciddi dərəcədə zədələyib, sığındığı yerə tuşlanan güllə isə sol dabanını dəlib-keçib. Aldığı yaralar bədənində ağır fəsadlar törədib. Döyüşçünün üzərində ayrı-ayrı hərbi qospital, eləcə də mülki xəstəxanalarda cərrahiyyə əməliyyatları aparılaraq bəzi qəlpələr çıxarılıb. Ancaq bədənində kiçik ölçülü qəlpələr qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli müvafiq Sərəncamı, habelə daxili işlər nazirinin 11 mart 2024-cü il tarixli əmri ilə kiçik çavuş B.Paşayev "İgidliyə görə" medalı və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib.

2024-cü ilin avqust ayında Bakir səhhəti ilə əlaqədar Daxili Qoşunların sıralarından ehtiyata buraxılıb. Daxili Qoşunların Baş İdarəsinin Tibb xidmətinin hərbi-həkim komissiyası tərəfindən verilən xəstəlik haqqında şəhadətnamədə onun sülh dövründə hərbi xidmətə yararsız, müharibə dövründə isə məhdud yararlı olduğu barədə qeydlər öz əksini tapıb.

Bakir hazırda müalicəsini davam etdirir, sağlamlıq durumu ilə bağlı işləmir, əlillik pensiyası alır. Ayşən xanımla evli olan qazinin Vüqar və Zərbalı adlı oğulları var. Övladları məktəblidirlər. Doğmaları, el-obası onunla qürur duyurlar. Doğma kəndi Qorçuya bir neçə dəfə baş çəkib, orada görülən bərpa-quruculuq işləri onu ürəkdən sevindirir. Vətən torpağına qanı tökülən, düşməndən qisas alan, məcburi köçkündən qazilik məqamına yol keçən Bakir xalqımızın dəyanətli oğludur.

**Yalçın Abbasov**

4_Layout 1 29.01.2025 16:32 Page 1



# ÇAĞIRIŞÇILARIN QƏBULU BAŞA ÇATIB

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, yanvar ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilib. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" müvafiq əmri ilə çağırışçıların məhkumluqlarının yoxlanılması, genişləndirilmiş tibbi müayinələrinin aparılması və mənəvi-psixoloji durumlarının qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili Qoşunların Baş İdarəsinin qərargahının təşkilat və komplektləşdirmə şöbəsinin rəisi polkovnik Xalid Bağırov seçim qrupunun rəhbəri təyin edilib.







25031 saylı hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini mayor Allahverdi Nəbiyev bildirib ki, çağırışçıların xidmətə qəbulu, onların yerləşdirilməsi və hərbi anda gətirilənədək müvafiq qaydada hazırlanması Daxili Qoşunlar komandanlığının xüsusilə diqqətdə saxladığı məsələlərdəndir.

Seçim qrupunun rəhbəri polkovnik X.Bağırov məlumat verib ki, hərbi-həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri tərəfindən qəbul məntəqəsinə daxil olan çağırışçılarla söhbətlər aparılıb. Onların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşü, Vətənə bağlılıqları, orduya münasibətləri, sosial vəziyyətləri, təhsilləri, bacarıq və işgüzar keyfiyyətləri ətraflı öyrənilib. Bütün məlumatlar toplandıqdan sonra hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanıb və hərbi hissəyə təqdim olunub.

Daha sonra çağırışçılar növbə ilə həkim müayinələrindən keçiriliblər. Bununla yanaşı, onlar əşya əmlakları, eləcə də ölçülərinə uyğun geyimlərlə təmin ediliblər.

Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra hərbi hissədə bölük və taqım komandirləri tərəfindən tərbiyəvi söhbətlər aparılıb, hərbi xidmətə adaptasiya olunmaları üçün tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu onlara məsləhətlər verib.

Hərbi hissədə çağırışçıların qəbulu və yerləşdirilməsi ilə bağlı lazım olan hər bir şəraitin mövcudluğu onu deməyə əsas verir ki, sıralarımıza xidmətə yeni qəbul olunmuş çağırışçıların Vətənə layiqli, intizamlı hərbi qulluqçu kimi formalaşması Daxili Qoşunların komandanlığının nəzarəti altında həyata keçirilib.

**kapitan Xədicə Hacızadə**

# QARŞIYA QOYULAN TAPŞIRIQLAR YÜKSƏK PEŞƏKARLIQLA YERİNƏ YETİRİLİR

Daxili Qoşunların hərbi qulluqçularının peşə vərdişlərinin təkmilləşdirilməsi, həmçinin hərbi bilik və bacarıqlarının artırılması baxımından Təlim mərkəzində hərtərəfli şərait mövcuddur. Sözügedən mərkəzdə qoşunların hissə və bölmələrinin döyüş qabiliyyətinin yüksəldilməsi, verilən tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi, habelə rəhbər sənədlərin tələblərinə uyğun olaraq şəxsi heyətin döyüş təliminin təşkili məqsədilə təlim obyektləri yaradılıb. Burada Daxili Qoşunların Baş İdarəsinin, hərbi hissələrin hərbi qulluqçuları ilə yanaşı, daxili işlər orqanlarının şəxsi heyəti də atəş hazırlığının ən vacib hissəsi olan praktiki atəş çalışmalarını yerinə yetirirlər.





Təlim mərkəzinin rəisi polkovnik-leytenant Umruz Məmmədov hərbi qulluqçuların praktiki fəaliyyətlərinin təkmilləşdirilməsi baxımından atəş hazırlığı, mühəndis hazırlığı, tək əsgərin döyüş təlimi, xüsusi vasitələrin tətbiqi, Daxili Qoşunların taktiki hazırlığı və taktiki hazırlıq şəhərciklərinin praktiki əhəmiyyətini vurğuladı. O, səhra şəraitində nəzəri biliklərin aşılanması üçün hər cür şəraitin olduğunu sözlərinə əlavə etdi. Təlim mərkəzində bu məqsədlə yaradılan tədris siniflərinin şəxsi heyətin istifadəsində olduğunu bildirdi.

### Bölük öz təyinatı üzrə vəzifələri uğurla yerinə yetirir

Yaradılan hərtərəfli şəraitin, eləcə də Təlim mərkəzinin yüksək döyüş hazırlığının qorunub saxlanılmasını buradakı təminat bölüyü həyata keçirir. Bölük komandiri kapitan Samir Cabarov əvvəlcə bölüyün üzərinə düşən vəzifələrdən danışdı. Bildirdi ki, Təlim mərkəzinin etibarlı mühafizəsi, hissə və bölmələrin praktiki atışlarının təmin edilməsi, atış sahələrinin daim hazır vəziyyətdə olması, təlim şəhərciklərinin, o cümlədən tədris siniflərinin hazırlanması, ərazinin səliqə-sahmanının qorunub saxlanılması təminat bölüyünün əsas vəzifələrindəndir.

Kapitan S.Cabarov qarşıya qoyulan vacib tapşırıqların öhdəsindən layiqincə gəlmək bacarığına malik olan leytenant Qorxmaz Talıbovun komandiri olduğu operatorlar taqımının fəaliyyəti barədə də danışdı. Gündəlik olaraq operatorlar taqımının şəxsi heyəti ilə ixtisasına uyğun məşğələlərin keçirildiyini söylədi.

Polkovnik-leytenant U.Məmmədov tərəfindən müsbət xarakterizə olunan leytenant Q.Talıbov qeyd etdi ki, taqımın əsas fəaliyyəti atış meydanının vaxtında hazır olması, hədəfqaldırıcı cihazların və idarəetmə avadanlıqlarının praktiki atəş çalışmasına hazırlanması, praktiki atışların keçirilməsinin təmin edilməsi, atışdan sonra hədəfqaldırıcıların növbəti praktiki atışlar üçün hazırlanması, onların sazlığı, qorunub saxlanılması, bunlarla yanaşı, elektrik təhlükəsizliyi qaydalarına riayət edilməsi diqqətdə saxlanılır.

Təminat bölüyünün nümunəvi, bacarıqlı hərbi qulluqçularından leytenant Emil İsmayılov, əsgərlər Səyyad Abdullayev və Kənan Əzimovun adlarını çəkən kapitan S.Cabarov onların hər birinin verilən tapşırıqların icrasında fərqləndiyini diqqətə çatdırdı.

**kapitan Şahin Cəfərzadə**

# HELİKOPTER MANQASININ MÜHƏNDİS-TEXNİKİ İSTİSMAR HİSSƏSİ NÜMUNƏVİ XİDMƏTİLƏ FƏRQLƏNİR

Daxili Qoşunların 17077 saylı hərbi hissəsinin helikopter manqasının mühəndis-texniki istismar hissəsinin şəxsi heyəti vəzifələrinin öhdəsindən layiqincə gəlir, qarşıya qoyulan tapşırıqlara məsuliyyətlə yanaşır. Bu barədə məlumat verən hərbi hissə komandirinin uçuş üzrə müavini-qərargah rəisi polkovnik-leytenant Ceyhun Qurbanzadə söylədi ki, hissə işini "Azərbaycan Ordusunun hərbi aviasiyasında mühəndis-aviasiya təminatı xidmətinin Təlimatı" və digər rəhbər sənədlərin tələblərinə uyğun olaraq təşkil edir.

Aviasiya texnikasının konstruksiyası, istismar qaydaları, tətbiq olunan yanacaq-sürtkü materiallarının, xüsusi mayelərin və qazların növləri, həmçinin hər helikopter üçün istifadə edilən yanacaq və yağın faktiki məsrəf normaları gündəlik olaraq nəzarətdə saxlanılır. Helikopterlərin uçuşa hazırlığı üçün bütün işlər yerinə yetirilir, nasazlıqlar olarsa, dərhal aradan qaldırılır. Uçuşdan öncə hər bir helikopterə baxış keçirilir, uçuşa hazırlıq vəziyyəti yoxlanılır. Bu zaman aviasiya texnikasının yerüstü xidmət vasitələrinə nəzarət olunur, yanacağın, yağın, xüsusi maye və qazların keyfiyyəti yoxlanılır, hər şey qaydasında olarsa, uçuşa icazə verilir. Təhlükəsizlik qaydalarına ciddi şəkildə riayət olunur, yanğın əleyhinə tədbirlər vaxtlı-vaxtında yerinə yetirilir.



Bundan əlavə, təsdiq edilmiş müvafiq cədvələ əsasən, helikopter manqasının borttexnikləri ilə məşğələlər də təşkil olunub keçirilir. Məşğələlər zamanı aviasiya texnikasının qabaqcıl istismar təcrübəsi hərbi qulluqçulara çatdırılır.

Polkovnik-leytenant C.Qurbanzadə görülən işlərdə baş çavuşlar İsmayıl İsmayılzadə, Murad Axıyev, Mehman Ramazanovun əməyini yüksək qiymətləndirdi.

**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

# VƏZİFƏ BORCLARININ İCRASINA MƏSULİYYƏTLƏ YANAŞAN KİTABXANAÇI

Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının yüksəldilməsi, bilik səviyyələrinin artırılması və maarifləndirilməsi diqqət mərkəzində olan məsələlərdəndir. Daxili Qoşunların hərbi hissələrində olan kitabxanalara şəxsi heyətin cəlb edilməsi, kitabxana fondunun zənginləşdirilməsi kitabxana rəislərinin üzərinə düşən məsuliyyətdir. Bu baxımdan 12318 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin kitabxana rəisi-kitabxanaçısı çavuş Humay Pirişova funksional vəzifələrinin icrasına diqqətlə yanaşır.



O, 1997-ci il yanvarın 3-də Şirvan şəhərində doğulub. 2003-2014-cü illərdə Şirvan şəhərindəki Nofəl Quliyev adına 9 saylı tam orta məktəbdə təhsil alıb. Orta təhsilini uğurla bitirən Humay 2014-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqogika fakültəsinə qəbul olunub. 2018-ci ildə ali təhsilini başa vurub. 2019-cu ildən bu günə kimi Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətdədir.

Kitabxananın işini təşkil etmək, daxil olan ədəbiyyatların siyahılarını hazırlamaq, düzgün və vaxtında qeydiyyatını aparmaq, onları nizama salmaqla kataloqlaşdırmaq çavuş H.Pirişovanın funksional vəzifələridir.

Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan qadın hərbi qulluqçu, həmçinin kitabxanada səliqə-sahmana, yanğın təhlükəsizliyi qaydalarına riayət olunmasına hər zaman ciddi yanaşır və bu işləri sevərək icra etdiyini deyir: "Düşünürəm ki, kitabların hər birinin öz dili var. Mütaliə isə bir mədəniyyətdir, desək, yerinə düşər. Belə bir ortamda işləmək insana ancaq zövq verə bilər. Kitabxanaçı olaraq hərbi qulluqçularla münasibətləri düzgün qurmağa çalışır və onların bilgilərinin artırılması üçün əlimdən gələni edirəm".

**kapitan Nigar Ağayeva**

# İNTİZAMLI VƏ BACARIQLI SÜRÜCÜ

Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmət keçən əsgər Cavidan Hacıyev məsuliyyətlə, vicdanla vəzifələrini yerinə yetirir. Hər zaman seçdiyi peşə ilə fəxr edən hərbi qulluqçu bu illər ərzində bir dəfə də olsun vəzifələrinin icrasına səthi yanaşmayıb.



O, 1998-ci ilin dekabr ayının 21-də Göygöl şəhərində doğulub. Orta təhsilini 2005-2016-cı illərdə Göygöl şəhəri İbrahim Hüseynov adına 1 saylı orta məktəbdə alıb. 2017-ci ilin yanvar ayından 2018-ci ilin iyul ayınadək Müdafiə Nazirliyinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2019-cu ildə 17072 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun xüsusi vasitələrin tətbiqi bölməsinin atıcısı vəzifəsinə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub.

2023-cü ilin iyul ayından əsgər C.Hacıyev 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun iriçaplı pulemyot yarımqrupunun sürücüsü vəzifəsində xidmətini davam etdirir.

Funksional vəzifələrinin icrasına vicdanla yanaşan hərbi qulluqçu verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirmək üçün əlindən gələni əsirgəmir.

**kapitan Şahin Cəfərzadə**

# LAYİQLİ XİDMƏT EDƏN BAŞ ƏSGƏR

Baş əsgər Sənan Rəcəbov 16076 saylı hərbi hissənin intizamı, nümunəvi xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularındandır. Hərbi hissənin mühafizə bölüyünün komandiri baş leytenant Mirsədi Babayev tərəfindən müsbət xarakterizə olunan hərbi qulluqçu qısa zamanda digər yoldaşlarına nümunə olmağı bacarıb.



Baş əsgər S.Rəcəbov 2006-cı il aprelin 12-də Şəmkir rayonunun Morul kəndində anadan olub. 2012-2023-cü illərdə Morul kəndinin tam orta məktəbində təhsil alıb. 2024-cü il aprelin 15-də SHXÇDX-nin Şəmkir Rayon Şöbəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hazırda 16076 saylı hərbi hissənin mühafizə bölüyünün baş atıcısı vəzifəsində xidmət edir.

Gələcək həyatını polis peşəsinə bağlamaq istəyən Sənan müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra daxili işlər orqanlarında Vətənə olan xidmətini iftixar hissilə davam etdirmək fikrindədir.

Hərbçi ləyaqətini hər şeydən üstün tutan baş əsgər S.Rəcəbova şərəfli xidmətində uğurlar arzulayırıq.

**kapitan Nigar Ağayeva**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### "Bayraktar TB3" ilk atışında hədəfi dəqiqliklə vurub

"Baykar" şirkətinin "Bayraktar TB3" pilotsuz uçuş aparatı (PUA) "Roketsan" şirkətinin istehsal etdiyi MAM-T mini ağıllı sursatı ilə ilk atış sınağını yerinə yetirib. "Poliqon" xəbər verir ki, bu barədə "Baykar" şirkəti məlumat yayıb.



Məlumatda bildirilib ki, sınaq zamanı əvvəlcə "Bayraktar TB3" pilotsuz uçuş aparatı ASELSAN şirkətinin istehsalı olan ASELFLIR-500 elektro-optik kəşfiyyat, müşahidə və hədəfləmə sistemi ilə təyin edilən hədəfi aşkarlayıb. Daha sonra atdığı iki ədəd MAM-T sursatı ilə hədəfi dəqiqliklə vurub.

**TƏSİSÇİ:**
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000